## *Stockholmda Göstəriyə çağırı*

Dəyərli yurddaşlar!

Uzun illərdən bəri, Güney  Azərbaycan türkləri İran fars şovinist rejiminin basqısı altındadır. Bu zülm Pəhləvilər dönəmindən bu gunə  qədər bütün gücüylə sürməkdədir.

Güney Azərbaycan türkləri öz tapdanmış haqlarını bərpa etmək üçün Babəki örnək götürmüşlər. Hər il yüz minlərlə yurddaşımız Babəkin Bəzz Qalasına milli qurultaya toplanır. Bu yolla onlar milli problemlərini  dünya ictimaiyyətinin diqqətinə çattırmaq istəyirlər.

İnsan haqlarını vəhşicəsinə tapdalayan İran rejimi bu il də keçən illərdə oldugu kimi, Babək Qalası yürüşünün qarşısını almaq üçün nizami ordudan istifadə etmişdir. Bu məqsədlə İsfahan və Şirazdan əlavə silahlı qüvvələr gətirilmişdir. Rejim qoca-qadın, uşaq-böyük demədən Babək Qalasına çıxmaq istəyənlərə divan tutmuşdur. İki gün içində minlərcə yurddaşımız vəhşicəsinə döyülmüş, yüzlərcə tutularaq zindanlara atilmişdir.  Xarici qəzetçilərin o cümlədən İsveçin ən böyük qəzetinin müxbirinin qalaya getməsinə icazə verilməmişdir.

Biz, İsveçdə fəaliyyət göstərən Azərbaycan Federasiyonu olaraq fars rejiminin bu vəhşi əməlinə qəti etiraz edir, bütün yurddaşlarımızı Stockholmda Dagens Nyheter (DN) binası qarşısında keçiriləcək  etiraz göstərimizə qatılmağa çağırırıq!

Biz bu göstəri vasitəsi ilə İranda insan haqlarının hər gün, hər saat pozuldugunu, 35 milyonluq bir xalqin milli haqlarinin qəsb edildiyini İsveç siyasətçilərinə, İsveç ictimaiyyətinə çatdırmaq istəyirik.

Göstərinin sonunda BMT, Amnesty İnternational, İsveç parlamenti, İranın Stockholmdakı səfirliyi, Azərbaycan və dünya ictimaiyyətinə muraciət qəbul olunacaqdir.

*Göstərinin yeri: Dagens Nyheter (DN), Gjörwellsgatan, 30.*

*Tarix: cümə günü, iyul (juli) ayının 8-i, saat 19.00*

*Azərbaycan Federasiyonu - İsveç (AFİ)*